# Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin anım günü ilə əlaqədar keçirilən mərasimdə çıxışı



**Hörmətli mərasim iştirakçıları!**

Azərbaycan xalqının, bütün türk dünyasının böyük oğlu, görkəmli siyasi xadim, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ümummilli liderimiz Heydər Əliyev doğma xalqına və torpağına həsr olunmuş mənalı bir ömür yaşadı. Bu böyük insan, dahi şəxsiyyət, nəhəng siyasətçi haqqında nə qədər danışsaq, onun şərəfli ömrünün yalnız kiçicik bir anına işıq salmış olarıq. Bir insan ömründə o, milyonlarla insanların görə bilməyəcəyi işləri gerçəkləşdirdi. Heydər Əliyevi cismən bizdən, Azərbaycan xalqından 10 illik bir zaman kəsiyi ayırır. Lakin keçən hər gün onun işıqlı xatirəsini adamların qəlbində möhkəmləndirir, ona qarşı olan ehtiramı artırır, sevgi hisslərini gücləndirir.

Heydər Əliyev keçdiyi əzəmətli ömür yolunda vətəninə sonsuz sevgi və sədaqəti, dəmir iradəsi, dərin zəkası, müdrik fenomenal rəhbərlik metodları ilə xalqın yaddaşında əbədi yaşamaq haqqı qazandı. Bəşər tarixinin qanunauyğunluqları belə bir nəticəyə gəlməyə əsas verir ki, hər bir dövrdə dövlətçilik təfəkkürünə, intellektual imkanlarına görə elə şəxsiyyətlər parlayıb siyasi mübarizəyə qoşulub ki, belə şəxsiyyətlər sadəcə zamanın axarıyla getməyi özlərinə rəva görməyib, tarixi proseslərə, hadisələrə bilavasitə müdaxilə etməklə yeni bir tarix yaradırlar.

Yaxın tariximizin bu canlı əfsanəsi dünyasını dəyişəndən sonra da insanların yaddaşında, düşüncələrində zamanın önündə gedən, öz zakası ilə Azərbaycanın gələcəyinə yol açan qeyri-adi bir şəxsiyyət kimi yaşamaqdadır.



Heydər Əliyev mövcud ictimai formasiyanın dramatik və ziddiyətli təlatümlərindən yüksəkdə duraraq cəmiyyətdə sabitlik, rifah və mədəni inkişaf kimi anlayışları çoxcəhətli fəaliyyətində daim rəhbər tutmuş, Azərbaycana bəlalar gətirən ictimai sistemlərin dəyişməsi prosesində yuxarıda göstərilən anlayışların reallığa çevrilməsində qətiyyət, dözüm və iradə nümayiş etdirmiş, ölkəni inanılmaz tərəqqi yoluna çıxarmışdır.

Heydər Əliyev uzaqgörənliyi, iti zəkası, qətiyyəti və siyasi məharəti müstəqilliyin ilk dövlərində Azərbaycana daha çox lazım idi. Çox təəssüf ki, bütün həyatı boyu Azərbaycanın müstəqilliyi haqqında düşünən, onun qorunub saxlanılması yollarını hamıdan yaxşı bilən bu tarixi şəxsiyyət o vaxt hakimiyyətdə olanların ambisiyaları üzündən tarixin onun üzərinə qoyduğu missiyanın yerinə yetirilməsindən kənarda qalmışdı. O vaxt Azərbaycana rəhbərlik edən şəxslər Heydər Əliyevin nadir dövlətçilik təcrübəsindən faydalanmaq əvəzinə, ümumiyyətlə bu təcrübəni ya inkar edir, ya da üzərinə kölgə salmağa cəhd edirdilər. Ümummilli məsələlərə belə qərəzli münasibət nəticəsində hakimiyyət təsadüfi qüvvələr tərəfindən zəbt edildi və ölkə hərbi-siyasi cəhətdən fəlakətli vəziyyətə düşdü.

Heydər Əliyevin Azərbaycan xalqı və tarix qarşısında ən böyük xidmətlərindən biri də ölkəmizin ərazi bütövlüyünün tanınması məsələsini dünya birliyinə qəbul etdirərək bu məsələyə ikili standartla yanaşılmasının yolverilməz olduğunu Azərbaycan dövlətinin dəyişməz mövqeyi kimi ortaya qoyması olmuşdur.

Dahi şəxsiyyətin hazırladığı iqtisadi strategiya bu gün Azərbaycan Prezdenti cənab İlham Əliyev tərəfindən elmi, hüquqi əsaslar üzərində uğurla inkişaf etdirilir. Ölkəmizdə iqtisadi sahədə müşahidə olunan artım templəri, regionların inkişafı ilə bağlı proqramların işlənib hazırlanması və gerçəkləşdirilməsi bunu bir daha təsdiq edir.

Heydər Əliyevin ideyaları bu gün də milli varlığımızın, birliyimizin təməl prinsiplərinin gücləndirilməsinə xidmət edir. Ulu öndərin xilaskar simasında Azərbaycan adlı məmləkətin olum və ya ölüm anında qorunmasını və yenidən mövcudluğunu anırıq. Heydər Əliyevin yoxluğundan doğan ağrı-acını hər birimiz yaşayır, lakin onun yalnız cismani olaraq bu gün bizlərdən ayrı olduğunu dərk edirik. Nə qədər ki, biz varıq, Azərbaycan xalqı var onun öz əli ilə qurub-yaratdığı Azərbaycan adlı əsəri olacaqdır. Ümummilli liderin işıqlı xatirəsi də bu əsərin hər sətrində, hər sözündə əbədi yaşayacaqdır.

# Ürəklərdə yaşayan dahi insan

Qüdrətli, güclü insanlar hər gün doğulmurlar. Dahilər, onların həyat yolu, əməlləri göstərir ki, əslində onlar insanlara yol göstərmək, örnək olmaq üçün doğulurlar. Tarixi məhz dahilər, kütləni arxasınca aparmağı bacaran insanlar, güclü şəxsiyyətlər yaratmış, cəmiyyətdə baş verən müxtəlif proseslərin istiqamətinin dəyişməsinə onlar təsir etmişlər.

Tarixi yaratmağa və hadisələrin axarını dəyişməyə qadir olan siyasət bilicisinin—ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlməsi xalqımızı , dövlətimizi fəlakətdən qurtardı. Onun böyüklüyü siyasi gücü və nüfuzu Azərbaycana can verdi, müstəqil dövlətimizi yaşatdı. Missiyası onu ucaltmaq, azadlığa həmişəlik qovuşdurmaq idi. Dünya şöhrətli öndərimizin Azərbaycana rəhbərliyi dövründə geniş miqyaslı qaynar fəaliyyəti nəticəsində müstəqil dövlətimiz quruldu və mühüm əhəmiyyətə malik olan möhtəşəm işlər həyata keçirildi.

Ümummilli lider Heydər Əliyev Azərbaycan gəncliyinə münasibətilə fərqlənən bir dövlət başçısı idi. Gənclərimizin gələcəyinə ümidlə baxır, onların qazandıqları uğurlara sevinirdi. Hər bir azərbaycanlı gənci savadlı, sağlam, mənəvi cəhətdən dolğun və vətənpərvər görmək ulu öndərimizin arzusu idi. Sağlam gənc—sağlam əsgərdir, sağlam vətəndaşdır. Ulu öndərimiz gənclərimizi belə görmək istəyirdi və gənclərlə bağlı siyasəti bu amillərə əsaslanırdı. Dünya azərbaycanlılarının ümummilli lideri, bütün türk dünyasının qüdrətli oğlu, dahi siyasi və ictimai xadim Heydər Əliyevin əməlləri danılmazdır. Möhkəm təməl üzərində qüdrətli bir şəxsiyyətin əlilə qurulan bu dövlət möhkəmlənməkdə davam edir və dünyanın inkişaf edən güclü bir dövlətinə çevrilir.

Qoca Şərqin müdriklik, aqillik, kamillik xəzinəsinin qüdrətli incisi olmaqla bütöv bir şəxsiyyət zirvəsinə, dahilik kamına qovuşan böyük öndər, heç vaxt unudulmayacaq, daim Azərbaycan xalqının ürəyində yaşayacaqdır.

12 dekabr—bu gün bütün dünya azərbaycanlıları milli liderimiz Heydər Əliyevin əziz xatirəsini yad edir. 12 dekabr ümummilli lider Heydər Əliyevin anım günü ilə əlaqədar Heydər Əliyev Mərkəzində silsilə tədbirlər, açıq dərslər keçirilmiş, ekskursiyalar təşkil olunmuş, ulu öndərin həyat və fəaliyyətinin müxtəlif dövrlərinə aid materiallar hazırlanmış və Mərkəzdə fəaliyyət göstərən “Bacarıqlı əllər” dərnəyinin üzvlərinin əl işlərindən ibarət sərgi açılmışdır.

Heydər Əliyev Mərkəzinin əməkdaşları şəhər məktəblərində müəllim və şagird kollektivləri ilə görüşlər keçirmişdir. Görüşlərdə mərkəzin əməkdaşları ümummilli liderin zəngin irsi haqqında geniş mühazirələr oxumuş, onun həyat və fəaliyyətinin müxtəlif dövrlərinə aid materiallar paylamışdır. Eyni zamanda müəllimlərin və şagirdlərin fikirləri dinlənilmişdir.

**Xəyalə İSAYEVA,**
**Heydər Əliyev Mərkəzinin direktoru**

# «Qafqaz» Sport hoteldə ehsan mərasimi

**(Əvvəli 2-ci səhifədə).**

Çünki təkcə Qəbələdə deyil, bütün respublikamızda sərt qarlı, şaxtalı gün olmasına baxmayaraq hər bir rayonda, böyük şəhərlərdə, həmçinin bir çox xarici dövlətlərin özündə minlərlə, 10 minlərlə insan Heydər Əliyevin abidəsini ziyarət etmiş, onun əziz xatirəsini yad etmişlər. Qəbələlilər də anım günündə özlərinin mütəşəkkilliyi ilə Heydər Əliyev ruhuna olan hədsiz sədaqətlərini bir daha nümayiş etdirmişlər.

Saleh Şirinov çıxışının sonunda Heydər Əliyevin ruhuna «Qurani-Kərimdən ayələr oxuyub tapşırmışdır.

Ehsan mərasimi 2 saatdan artıq davam etmişdir.

**Nadir ATAKİŞİYEV.**